

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 145 (21.806)

*3 avqust 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Avqustun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan Pirşağı-Novxanı dənizkənarı və Binəqədi-Novxanı-Corat avtomobil yollarının açılışında iştirak edib.

Bildirilib ki, bu yol Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Abşeron yarımadasının şimal hissəsində sahil boyunca salınıb. Yolun uzunluğu 13,5 kilometrdir. Layihəyə uyğun olaraq ikizolaqlı yolun hərəkət hissəsinin eni 9 metrdir. Sahil boyunca bəzi ərazilərdə mövcud yolun eni genişləndirilib. Yolun həm Novxanı, həm də Pirşağı qəsəbələrindən keçən hissələrində eni 3-4 metrdən 9 metrə çatdırılıb.

Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsib.

Azərbaycan Prezidenti yeni yolda avtomobili idarə edib.

Sonra dövlətimizin başçısı yenidən qurulan Binəqədi-Novxanı-Corat avtomobil yolunun açılışında iştirak edib.

Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsib.

Hər iki avtomobil yolunun açılışından sonra xatirə şəkilləri çəkdirilib.



## Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının şura iclasları keçirilib



***Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında 2017-ci ilin birinci yarımilində görülən işlər və qarşıda duran vəzifələrlə bağlı keçirilən şura iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov hesabat məruzəsi ilə çıxış edib.***

Bildirilib ki, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı fəaliyyətini ilin əvvəlində təsdiq olunmuş iş planı əsasında qurub. Təşkilatın idarə heyətinin 6, şurasının 2 iclası keçirilib. İlk yarımil ərzində partiya sıralarına qəbulda keyfiyyət tərkibinin yaxşılaşdırılmasına, xüsusilə gənclərin Yeni Azərbaycan Partiyasına qəbul edilməsinə böyük önəm verilib. Hesabat dövründə rayon partiya təşkilatının sıralarına 21 nəfər üzv qəbul edilib. Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının qeydiyyatında 1487 nəfər üzv vardır. Partiya üzvlərinin 280 nəfəri qadınlar, 382 nəfəri isə gənclərdir.

Məruzə ətrafında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri Vüsalə Əliyevanın, təşkilatın Gənclər Birliyinin sədri Polad Rzazadənin, Sədərək kənd ilk partiya təşkilatının sədr müavini Gülnarə Hüseynovanın və Qaraağac kənd ərazi ilk partiya təşkilatının sədri Ayaz Əliyevin çıxışları olub.

Çıxışlarda qeyd edilib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu da Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının yeni müstəvidə inkişafını təmin edir.

İclasda Sədərək Rayon İcra Hakimiyyətinin başçısı, şura üzvü Həbib İbrahimov çıxış edərək rayonda həyata keçirilən quruculuq işləri haqqında ətraflı məlumat verib, qarşıda duran vəzifələrdən danışıb.

* * *

***Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının şura iclası keçirilib. Şura iclasında təşkilatın 2017-ci ilin birinci yarımilində görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub.***

İclasda təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Rizvan Məmmədov məruzə edərək bildirib ki, bu gün cəmiyyətdə Yeni Azərbaycan Partiyasının nüfuzunun güclənməsi, dövlətçiliyimizin qorunub saxlanılması və inkişaf etdirilməsində partiya üzvlərinin fəaliyyətinin əlaqələndirilməsi təşkilatda partiya işinin yenidən qurulmasını və təkmilləşdirilməsini tələb edir. İlin ötən dövrü ərzində təşkilat öz işini bu istiqamətdə qurmağa səy göstərib, partiya fəallarının gücündən səmərəli istifadə etməyə çalışıb. Bu dövrdə rayon partiya təşkilatında Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının qərarlarının icra olunması və ilk partiya təşkilatlarında partiya işinin daha da yaxşılaşdırılması, partiya üzvlərinin siyasi fəallığının artırılması istiqamətində qarşıda duran vəzifələr müzakirə edilib.

Hazırda təşkilatın tərkibində olan 46 ilk partiya təşkilatında 3578 nəfər partiya üzvü birləşir ki, onlardan 1724 nəfəri gənclər, 1414 nəfəri qadınlardır. 2017-ci ilin ötən dövründə 39 nəfər partiya sıralarına qəbul edilib ki, onların 33 nəfəri gəncdir.

Hesabat dövründə Gənclər Birliyinin rayonun aid təşkilatları ilə birgə keçirdiyi tədbirlər, rayon Qadınlar Şurasının fəaliyyəti təhlil olunub.

Vurğulanıb ki, kənd mərkəzlərində yaradılmış şəraitdən ilk partiya təşkilatları səmərəli istifadə etməli, tədbirlərin keçirilməsinə diqqəti artırmalıdırlar.

Şura iclasında Yeni Azərbaycan Partiyasının 25-ci ildönümünün qeyd olunması ilə əlaqədar tədbirlər müəyyənləşdirilib, həmin tədbirlərin keçirilməsi üçün şura üzvlərinə tapşırıqlar verilib.

Müzakirələrdə təşkilatın Gənclər Birliyinin sədri Vüqar Muradov, rayon Təhsil Şöbəsi ilk partiya təşkilatının sədri Gülnar Əlizadə, rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev çıxış ediblər.

Şura iclasına Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov yekun vurub.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 2017-ci ilin birinci yarımilində görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində kollegiya iclası olub

İclası nazir Cavid Səfərov açaraq məruzə edib. Bildirib ki, muxtar respublikada uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar əhalinin məşğulluq imkanlarını artırıb, işçilərin əmək hüquqlarının təmin edilməsi, aztəminatlı ailələrin, habelə sağlamlıq imkanları məhdud şəxslərin reabilitasiyası üçün əlverişli şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılıb, işəgötürənlər tərəfindən vakansiyalar haqqında hesabatların təqdim edilməsinə nəzarət daha da artırılıb və vaxtaşırı monitorinqlər keçirilib. Bununla yanaşı, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi üçün müəssisələrdə sorğular, həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olanların və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluqlarını təmin etmək məqsədilə sosialyönümlü layihələr həyata keçirilib.

Qeyd edilib ki, nazirlik tərəfindən cari ilin ötən dövrü ərzində 1299 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilib, 136 nəfər haqqıödənilən ictimai işə cəlb olunub, kənd və qəsəbələrdə fəaliyyət göstərən kənd yerlərində mövcud olan vakant yerlər üzrə 44 nəfər işlə təmin edilib. Bu müddət ərzində keçirilən əmək yarmarkalarında isə 206 nəfərin peşə və ixtisasına uyğun işə düzəlməsinə köməklik göstərilib.



Hesabat dövründə sosial müavinət və təqaüdlərə 6 milyon 892 min 899 manat sərf olunub. Muxtar respublikada həyata keçirilən uğurlu sosial siyasət, habelə əhalinin məşğulluq imkanlarının artması aztəminatlı ailələrin sayının azalması ilə nəticələnib. Belə ki, bu ilin birinci yarısında aztəminatlı ailələrə ödənilən ünvanlı dövlət sosial yardımına 998 min 623 manat sərf olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 449 min 683 manat azdır. Buna səbəb yaradılan yeni iş yerlərinin hesabına aztəminatlı ailələrdə əmək qabiliyyətli ailə üzvlərinin işlə təmin olunmalarıdır.

Nazir vurğulayıb ki, sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası ilə bağlı tədbirlər davam etdirilib, Naxçıvan Əlillərin Bərpa Mərkəzində 133 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 142 uşağın müalicəsi təşkil edilib. Həmçinin sağlamlıq imkanları məhdud 40 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilib, 50 nəfər texniki reabilitasiya vasitələri ilə təmin olunub, məhdud fiziki imkanlı 182 nəfərə protez-ortopedik xidmət, 22 nəfərin sosial məişət şəraitinin yaxşılaşdırılmasına, 19 nəfərin respublika daxilində müalicəsinə maddi köməklik göstərilib. Bu dövrdə tənha yaşayan və yardıma ehtiyacı olan 228 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, 10 nəfərə isə Ahıllar Evində stasionar sosial xidmət göstərilib.

Diqqətə çatdırılıb ki, bəzi sahələrdə yol verilən nöqsanların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülüb.

Sonra məruzə ətrafında çıxışlar olub.

İclasa Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov yekun vurub.

## Ekoloji tədbirlər cari ilin birinci yarısında uğurla davam etdirilib

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən kollegiya iclasında nazir Hafiz Yaqubov çıxış edərək bildirib ki, yaz əkin mövsümündə muxtar respublika ərazisində, şəhər, qəsəbə və kəndlərdə, sututarların, su kanallarının ətrafında, magistral yolların kənarlarında, ümumilikdə, 273,8 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilib, yeni meyvə bağları salınıb. Yaşıllaşdırma tədbirlərində, ümumilikdə, 196 min 400 meşə və meyvə tingi, həmişəyaşıl ağaclar, bəzək kolları əkilib. Həmçinin nazirlik tərəfindən yaz əkin mövsümündə, ümumilikdə, 65,2 hektar sahədə yaşıllıq zolaqları, meyvə bağları salınıb, 113,6 hektar sahədə ting və tumla bərpa işləri görülüb.

Qeyd olunub ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq nazirliyin tabeliyində olan idarə və müəssisələr tərəfindən 42,5 hektar sahədə meyvə bağları salınıb, 26 min 600 ədəd müxtəlif meyvə tingləri əkilib. Həyata keçirilən yaşıllaşdırma tədbirlərində meşə və meyvə tinglərinə, həmişəyaşıl ağaclara olan tələbat nazirliyin tabeli idarələri tərəfindən tam təmin edilib. Bu məqsədlə 3,5 hektardan çox ərazidə toxum səpini və qələm-çilik köklənmə işləri icra olunub.



Diqqətə çatdırılıb ki, əkin bərpa işlərinin ardıcıl aparılması məqsədilə dibçəkdə ting yetişdirilməsi sahəsində iş davam etdirilib və bu üsulla hesabat dövründə 3,5 min ting yetişdirilib, 30 min iydə, 64 min üzüm, 7 min 500 tut qələmi əkilib. Naxçıvan Muxtar Respublikasının daxili sularında, Araz çayı və dəryaçasının muxtar respublika hüdudlarına aid olan hissəsində suların ekoloji vəziyyətinin nəzarətdə saxlanılması məqsədilə 51 monitorinq keçirilib, 71 dəfə su nümunəsi götürülərək fiziki-kimyəvi xassələrini öyrənmək məqsədilə 852 laborator analiz-təhlillər aparılıb. Torpaqların münbitliyinin, geobotaniki tərkibinin qorunması və bərpası, otlaqlardan istifadənin tənzimlənməsi sahəsində işlər davam etdirilib. Ekoloji baxımdan istifadəyə yararlı 19 min 193 hektar yay otlaq sahəsi fermer, fərdi təsərrüfat sahibkarlarının istifadəsinə verilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

İclasa Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov yekun vurub.

**Xəbərlər şöbəsi**

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Şərur Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında qarşıya qoyulan vəzifələrə və 2017-ci ilin altı ayında görülmüş işlərə dair müşavirə keçirilib. Müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov hesabat məruzəsi ilə çıxış edib.*

Qeyd olunub ki, ilin birinci yarısında qarşıya qoyulmuş başlıca vəzifələr maliyyə vəsaitlərindən səmərəli istifadə etməklə tikinti-quruculuq və abadlıq tədbirlərinin daha da genişləndirilməsinə, yeni istehsal sahələrinin yaradılmasına, bu hesaba əlavə iş yerlərinin açılmasına, təhsil, səhiyyə və mədəniyyət tədbirlərinə diqqətin artırılmasına, xidmət və infrastruktur sahələrində işin müasir tələblərə uyğun qurulmasına yönəldilib.

Bildirilib ki, altı ayda rayonda istehsal olunan sənaye məhsullarının həcmi 47 milyon 887,9 min manat, yaxud 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çox olub. Sənaye müəssisələrində 3 min 229 nəfər işçi çalışıb ki, bu da əvvəlki ildə olan rəqəmi 1,2 faiz üstələyir. Bir nəfərə hesablanan orta aylıq əməkhaqqı isə 1,4 faiz artaraq 343 manat təşkil edib.

Diqqətə çatdırılıb ki, altı ayda 47 milyon 422,3 min manatlıq bitkiçilik və heyvandarlıq məhsulları istehsal olunub. Bu da ötənilki rəqəmdən 3,1 faiz çoxdur. Rayonda taxıl biçini müvəffəqiyyətlə başa çatıb, istehsal olunan məhsul 13 min 171 ton, orta məhsuldarlıq 31,8 sentner olub.

Aparılan meliorativ tədbirlər nəticəsində əlavə torpaq sahələri əkinəyararlı hala salınıb.

Məruzəçi "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlərdən, heyvandarlığın inkişafı, ailə təsərrüfatlarının fəaliyyətlərinin genişləndirilməsi ilə bağlı qazanılan uğurlardan bəhs edib.

Rayon İcra Hakimiyyətinin başçısı cari ilin altı ayı ərzində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilən vəsait barədə məlumat verərək deyib ki, bu müddətdə sərf olunan vəsait 37 milyon 334,7 min manat, yaxud əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz çox olub. Tikinti-quraşdırma işlərində istifadə olunan investisiyanın həcmi isə 0,6 faiz artaraq 35 milyon 66 min manat təşkil edib. Şərur şəhərində 1020 şagird yerlik, Çəmənli kəndində 380 şagird yerlik tam orta məktəb binaları, Çəmənli və Arpaçay kəndlərində kənd və xidmət mərkəzləri tikilib istifadəyə verilib, rayon Mərkəzi Xəstəxanasının, Dəmirçi kəndində stadionun əsaslı təmiri başa çatdırılıb. Hazırda Ərəbyengicə, Qarahasənli və Ələkli kəndlərində geniş quruculuq işləri görülür, Yengicə kəndindəki XVIII əsrə aid hamamın bərpası, Şərur şəhərində və ətraf kəndlərdə içməli su və kanalizasiya xətlərinin yenidən qurulması davam etdirilir.

Kamal Cəfərov informasiya və rabitə xidmətlərinin təşkili, təhsil sahəsində görülən işlərdən, Gənclər və İdman İdarəsinin həyata keçirdiyi tədbirlərdən də danışıb.

Məruzə ətrafında çıxışlar olub, rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov müşavirəyə yekun vurub.

**Elman MƏMMƏDOV**

* * *

***Müşavirədə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2017-ci ilin yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 29449,5 min manat və ya 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın dəyəri bir il öncəyə nisbətən 1,5 faiz artaraq 28290,7 min manat təşkil edib.***

Bu dövrdə Ordubad dəmiryol vağzalının yeni binasının və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad Yol Sahəsinin inzibati binasının, Ordubad şəhərində içməli su və kanalizasiya sisteminin, Ordubad Su Elektrik Stansiyasının, Üstüpü kəndində yeni məktəbin, kənd və xidmət mərkəzlərinin, Ordubad şəhərində Rabitə evinin tikintisi davam etdirilib.

Vurğulanıb ki, Ordubad rayonunda 2017-ci ilin məhsulu üçün 3937 hektar sahədə əkin aparılıb, hazırda məhsul yığımı davam edir.

Rayonda meliorasiya və irriqasiya vəziyyətinin yaxşılaşdırılması məqsədilə mövcud nasos stansiyalarında olan nasoslar təmir olunub.

Ekoloji tarazlığın qorunmasında yaşıllaşdırma tədbirləri böyük əhəmiyyətə malikdir. Hər il olduğu kimi, bu il də belə tədbirlər yüksək səviyyədə təşkil edilib.



Qeyd olunub ki, rayonun bütün kəndləri internetlə təmin edilib. 6 ay ərzində 80 ədəd məftilli telefon xətti çəkilərək abunəçilərin sayı 8335 nəfərə,76 ədəd sürətli internet çəkilərək abunəçilərin sayı 2784 nəfərə çatdırılıb, yeni tikilmiş 17 mənzilə qaz xətti çəkilib.

Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 6 ay ərzində 28 şəhid ailəsinə 38 min 250 manat, 1 nəfər 20 Yanvar şəhidi ailəsinə isə 1809 manat Prezident təqaüdü ödənişi həyata keçirilib. Çernobıl AES-də baş vermiş qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak etmiş 10 nəfərə əlilə müalicə almaq məqsədilə 2228 manat məbləğində birdəfəlik müavinət ödənilib.

2017-ci ilin 6 ayı ərzində rayon Vergilər Şöbəsi tərəfindən 837,9 min manat proqnoz tapşırığa qarşı dövlət büdcəsinə 925,7 min manat vəsait ödənilməsi təmin edilib, proqnoz tapşırığa 110,5 faiz əməl olunub.

Bu ilin birinci yarısında rayon Məşğulluq Mərkəzinə 183 nəfər işaxtaran vətəndaş müraciət edib, qeydə alınan işaxtaranların 155 nəfəri iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunub. İşaxtaran vətəndaşların məşğulluğunu təmin etmək məqsədilə 21 nəfər haqqıödənilən ictimai işlərə göndərilib.

Məruzə ətrafında çıxışlar olub.

**Abbas SEYİD**

* * *

***Kəngərli rayonunda keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov məruzə ilə çıxış edib.***

Bildirilib ki, Kəngərli rayonunda iqtisadi və sosial sahələrin inkişafı üzrə həyata keçirilən tədbirlər cari ilin ilk yarımilində də davam etdirilib. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin yanvar-iyun aylarında Kəngərli rayonunda sənaye məhsulunun həcmi 1,1 faiz, əsas kapitala yönəldilən investisiya 1,3 faiz, kənd təsərrüfatının ümumi məhsulu 2,9 faiz, nəqliyyat sektorunda yük daşınması 1,9 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 1,8 faiz, pərakəndə əmtəə dövriyyəsi 1,5 faiz, əhaliyə göstərilən pullu xidmətlər 1,8 faiz artıb.

2017-ci ilin yanvar-iyun ayları ərzində rayonda 10 milyon 879 min 500 manat həcmində sənaye məhsulu istehsal olunub ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 1,1 faiz çoxdur.

Qeyd olunub ki, Kəngərli rayonunda 2017-ci ilin ötən dövrü ərzində tikinti sektorunda sosial sahələrin inkişafı üstünlük təşkil edib, Qıvraq qəsəbəsində 224 yerlik uşaq bağçası istifadəyə verilib, 48 mənzilli yaşayış



binasının tikintisi isə davam etdirilir. Qarabağlar Türbə Kompleksində bərpa işləri, Şahtaxtı kəndindəki Şahtaxtinskilər muzeyində isə təmir işləri görülüb. 2017-ci ilin yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 24 milyon 826 min 300 manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın dəyəri bir il öncəyə nisbətən 1,6 faiz artaraq 23 milyon 654 min 700 manat təşkil edib.

Vurğulanıb ki, rayonda kənd təsərrüfatı sahələrinin inkişafı da diqqətdən kənarda qalmayıb. Rayon ərazisində 2017-ci ilin məhsulu üçün 8 min 261 hektar sahədə kənd təsərrüfatı məhsullarının əkini aparılıb. Hazırda cari ilin məhsulu üçün əkilmiş 4364 hektar sahədə taxıl biçini uğurla davam etdirilməkdədir. Bu günədək 4 min hektardan artıq zəminin taxılı biçilib, biçilmiş sahələrdə orta məhsuldarlıq 29,4 sentner təşkil edib. Rayonda istehsal olunan meyvə-tərəvəz məhsullarının rahat şəkildə satışını təşkil etmək üçün məhsul istehsalçılarının rayon mərkəzində və Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı yarmarkalarında iştirakları təmin olunub. Bundan əlavə, 2017-ci ilin birinci yarımili ərzində yaşıllaşdırma tədbirləri davam etdirilib, 6,7 hektar sahədə meşəsalma, 7 hektar sahədə meşəbərpa işləri aparılıb, 5546 ədəd ting salınıb.

Kəngərli rayonunda həyata keçirilən məşğulluq tədbirləri haqqında məlumat verən İcra Hakimiyyətinin başçısı bildirib ki, rayonda 106 nəfər işaxtaran vətəndaş qeydə alınıb, 114 nəfər işlə təmin olunub. 1 nəfər ictimai işə, 16 nəfər peşə təlimi kurslarına göndərilib. 1 əmək yarmarkası keçirilib, 33 nəfər işlə təmin olunub.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Müşavirəyə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov yekun vurub.

**✍ Səbuhi HƏSƏNOV**



İclasda Naxçıvan Musiqi Kollecinin direktoru Günay Əliyeva çıxış edərək bildirib ki, təhsil müəssisəsi yarandığı ilk illərdən etibarən muxtar respublikada ixtisaslı musiqiçi kadrların yetişdirilməsində başlıca funksiyanı icra edir. Hazırda kollecdə əyani şöbədə 11 ixtisas üzrə 520, qiyabi şöbədə 4 ixtisas üzrə 26 tələbə təhsil alır. İstedadlı gənclərin üzə çıxarılması, onların ifaçılıq qabiliyyətlərinin artırılması məqsədilə kollec tələbələrinin mütəmadi olaraq solo konsertləri təşkil edilir.

Qeyd olunub ki, kollecin musiqi kollektivləri keçirilən müxtəlif tədbirlərdə fəallıq göstərirlər. Belə ki, mart ayında muxtar respublika səviyyəsində keçirilən Novruz bayramı şənliyində "Naxçıvanqala" ritm qrupu, "Sazçalanlar" ansamblı, rəqs qrupu, "Muğam" üçlüyü, "Qızlar" ansamblı konsert proqramı ilə çıxış ediblər. Kollecdə Azərbaycanın görkəmli bəstəkarı Tofiq Quliyevin 100 illiyinə həsr olunmuş elmi konfrans keçirilib. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən Tofiq Quliyevin əsərlərindən ibarət müsabiqədə kollecin müxtəlif ixtisaslar üzrə tələbələri iştirak edib, uğurlu çıxışlarına görə müxtəlif nominasiyalar üzrə mükafatlandırılıblar. Bu təhsil ocağında vaxtaşırı tanınmış, görkəmli şəxslərlə görüşlər təşkil olunur.

Vurğulanıb ki, Naxçıvan Musiqi Kollecində 2016-2017-ci tədris ilinin ikinci yarısında görülən işlər və həyata keçirilən tədbirlər mütəmadi olaraq pedaqoji şuranın iclaslarında müzakirə edilib.

Daha sonra kollecin Kitabxana-informasiya təminatı və orkestr alətləri və xoreoqrafiya ixtisaslarının fənn birləşmə komissiyalarının sədrləri Akif Bağırov, Fətəli Axundzadə, əyani təhsil üzrə şöbə müdiri Lamiyə Nəcəfova çıxış edərək qarşıda duran vəzifələrdən danışıblar.

**✍ Fatma BABAYEVA**

* * *



*Naxçıvan Dövlət Texniki Kollecində keçirilən iclası giriş sözü ilə kollecin direktoru Asəf Ruşanov açaraq məruzə edib.*

Məruzədə qeyd edilib ki, ilin əvvəlindən fənn birləşmə sədrlərinin, qrup rəhbərlərinin, kabinet müdirlərinin iş planları, müəllimlərin mövzu təqvim planları təsdiq edilib və yarımil ərzində həmin proqramlar əsasında fəaliyyət təşkil olunub. Kollecdə fəaliyyət göstərən fənn birləşmələrinin hər birinin tərkibinə daxil olan fənlər üzrə metodik işlər müzakirə edilib.

Qeyd olunub ki, kollecin müəllimlərinin bu tədris ilində fəaliyyətləri qənaətbəxş sayıla bilər. Dərslərin əksəriyyəti kabinə şəraitində keçirilməklə tələbələrin əyani vəsaitlərdən istifadə etməsinə şərait yaradılıb. "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq müvafiq ixtisaslarda təhsil alan tələbələrin təcrübə keçmələri təmin olunub, kollecdə əlamətdar günlərlə bağlı bir sıra tədbirlər keçirilib. Muxtar respublikada elektron resursların təhsildə tətbiqi üçün lazımi şərait yaradılıb. Burada yaradılan kompüter siniflərini, istifadəyə verilən elektron lövhələr elektron təhsil resurslarının tətbiqinə imkan verib. Bu ilin ilk yarısında muxtar respublikanın elm, təhsil, mədəniyyət ocaqları ilə birgə distant dərslər təşkil edilib, kollec tələbələrinin bu dərslərdə fəal iştirakı təmin olunub.

Bildirilib ki, uğurlarla yanaşı, nöqsanlar da mövcuddur. Naxçıvan Dövlət Texniki Kollecinin kollektivi göstərilən yüksək diqqət və qayğıdan bəhrələnərək bundan sonrakı fəaliyyəti dövründə intellektual səviyyəyə malik orta ixtisaslı gənc kadrların hazırlanması sahəsində işi davam etdirəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olub.

**✍ Nail ƏSGƏROV**

* * *



Naxçıvan Tibb Kollecində keçirilən yığıncağı kollecin direktoru Sona Məmmədova açaraq bildirib ki, cari ilin ilk yarısında kollecdə müalicə, mamalıq, tibb bacısı, əczaçılıq, ortopedik stomatologiya, idman və müalicə masajı, laboratoriya diaqnostikası və hərbi feldşer ixtisasları üzrə tədris davam etdirilib. Kollecdə 8 fənn birləşməsi, 9 kabinə, 3 laboratoriya vardır. İnformasiya-kommunikasiya texnologiyalarından lazımi qaydada istifadə edilməsi, dərslərdə əyaniliyin təmin olunması məqsədilə burada 6 elektron lövhəli və 2 kompüter sinfi fəaliyyət göstərir.

2016-2017-ci tədris ilinin ikinci yarımilində kollecdə 727 tələbə təhsil alıb, onlardan 255 nəfəri məzun olub. Tələbələr müasir tibbi avadanlıqlarla təchiz olunmuş xəstəxanalarda praktik vərdişlərə yiyələnirlər.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə Türkiyə Respublikasının tanınmış klinika və ali məktəbləri arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinə uyğun olaraq Naxçıvan Tibb Kollecinin müxtəlif ixtisaslar üzrə tələbə və müəllim heyəti Türkiyə Respublikasının Ankara şəhərində biraylıq təcrübə kursu keçib.

Vurğulanıb ki, hesabat dövründə elmi-praktik seminar və konfransların, treninqlərin keçirilməsi diqqət mərkəzində saxlanılıb.

Yığıncaqda kollecin müəllimi Vəfa Məmmədovanın hesabat məruzəsi dinlənilib, məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Acarıstanlı uşaqlar Naxçıvanda onlar üçün yaradılmış şəraitdən çox razıdırlar

***Xəbər verdiyimiz kimi, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında səhiyyə sahəsində həyata keçirilən tədbirlərin davamı olaraq iyulun 28-də tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən acarıstanlı aztəminatlı ailələrdən olan 19 uşaq və onları müşayiət edən 9 valideyn Duzdağ Fizioterapiya Mərkəzində müalicə kursu keçmək üçün Naxçıvana gəliblər.***

Avqustun 2-də acarıstanlı uşaqlar "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində oldular. Qonaqlara bildirilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Buna görə də regionda tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri mövcuddur. Bu abidələr arasında isə Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində acarıstanlı qonaqlara burada nümayiş etdirilən, eramızdan əvvəl V-VIII minilliklərə aid olan müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, qiymətli eksponatlar haqqında məlumat verilib.

Qonaqlar çay süfrəsinə dəvət olunublar.

Acarıstanlı uşaqlar daha sonra Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində olub, mərkəzin Texniki yaradıcılıq və Bədii şöbələrinin "Bacarıqlı əllər", "Bədii tikmə", "Toxuma" və "Dekorativ-tətbiqi sənət" dərnəkləri üzvlərinin əl işlərindən ibarət sərgiyə baxıblar.

Naxçıvanla tanışlıq acarıstanlı qonaqlarda zəngin və maraqlı təəssürat yaradıb. Acarıstan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşı, *həkim Marika Xalvaşi* qəzetimizə müsahibəsində təəssüratlarını belə bölüşüb: "Əvvəlcə mən öz adımdan və bura gəlmiş uşaqların valideynləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova öz dərin minnətdarlığımızı bildirirəm. Bilirik ki, muxtar respublika rəhbərinin qayğısı və diqqəti nəticəsində hər il acarıstanlı aztəminatlı ailələrin uşaqları Naxçıvana gələrək burada müalicə olunurlar.







Bizi qonaqpərvərliklə qarşılayıb, uşaqların müalicəsilə mütəmadi maraqlanırlar. Artıq bizim uşaqlar bir neçə gündür, buradadırlar və müalicənin effektini görməkdəyik. Müalicə üçün gözəl şərait yaradılıb. Eyni zamanda burada olduğumuz günlərdə uşaqların şəhərlə tanışlığı da nəzərə alınıb. Təşkilatçılıq çox yüksək səviyyədədir. Artıq bir neçə muzeydə olub, şəhərin tarixi məkanları haqqında məlumat almışıq. Şəhərinizin qədimliyi və gözəlliyi çox xoşumuza gəldi".

Acarıstandan gəlmiş *valideyn Dali Kekieşvili* də söhbətə qoşularaq dedi: "Naxçıvana ilk dəfədir ki, gəlirəm. Çox maraqlı yerdir. Şəhərinizin qədimliyi, müasirliyi, təmizliyi insanı valeh edir. Mən oğlumun müalicəsi üçün bura gəlmişəm. Bu işin təşkilatçılarına öz minnətdarlığımı bildirirəm".



Acarıstan Muxtar Respublikasından müalicə üçün Naxçıvana gəlmiş uşaqlar da onlar üçün burada yaradılmış şəraitdən, göstərilən qayğıdan razıdırlar. *Beka Bolkvadze* 8-ci sinif şagirdidir. Onun dediklərindən: "Naxçıvana ilk dəfədir ki, gəlirəm. Duzdağ Fizioterapiya Mərkəzi çox mükəmməl yerdir. Xəstələrin müalicəsi üçün burada gözəl şərait yaradılıb. Bura gədiyimiz ilk gündən özümü yaxşı hiss etməyə başlamışam. İnanıram ki, burada tam müalicə olunacağam".



İrakli Turmanidze isə 10-cu sinif şagirdidir. O da təəssüratlarını bizimlə bölüşdü: "Naxçıvan haqqında eşitmişdim. Burada müalicə almaq üçün qrupa yazıldığımı öyrənəndə çox sevindim. Bizə məlumat verdilər ki, Naxçıvan Muxtar Respublikasının rəhbəri hər il yuxarı tənəffüs yolları xəstəlikləri olan uşaqların burada müalicəsini təşkil edir. Buna görə də çox minnətdaram. Arzu edirəm ki, sağlamlığa ehtiyacı olan digər uşaqlar da bu imkandan yararlana bilsinlər".



Beşinci sinif şagirdi *Nini Davitadze* də Naxçıvana gəldiyi üçün çox sevinclidir: "Başqa ölkələrdə olmaq mənim üçün çox maraqlıdır. Naxçıvanı bəyəndim. Burada bizə lazımi qayğı göstərirlər, uşaqlarla maraqlanırlar. Yeni dərs ilində Naxçıvanla bağlı xoş təəssüratlarımı sinif yoldaşlarımla bölüşəcəyəm".



Qeyd edək ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasındakı ikitərəfli əlaqələr 2012-ci ildən başlayaraq həyata keçirilən qarşılıqlı rəsmi səfərlər nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyub. Həmin ildən etibarən müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində əməkdaşlıq əlaqələri genişlənib. Hər il Acarıstan Muxtar Respublikasının aztəminatlı ailələrindən olan və tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən uşaqların Duzdağ Fizioterapiya Mərkəzində pulsuz müalicəsinin təşkili də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

**Səbuhi HƏSƏNOV**

# Naxçıvan təbiətini tanıdan və zənginləşdirən məkan

***Hazırda dünyanın bir çox yerlərində tükənməkdə olan nadir bitkilərin qorunması üçün dövlət qoruqları və xüsusi mühafizə olunan təbii ərazilər mövcuddur. Lakin bioloji müxtəlifliyin qorunmasında və inkişaf etdirilməsində əsas missiyanı Nəbatat bağları həyata keçirir. Bu qəbildən olan bağlar həm də turizmin inkişafında mühüm rol oynayır. Təsadüfi deyil ki, dünyanın müxtəlif ölkələri haqda tanıtım çarxlarında Nəbatat bağları haqda məlumatlar daha dolğun əksini tapır. Nəbatat bağlarının ən qədim nümunələrinə Çində və Aralıq dənizi sahili ölkələrində rast gəlinir. Meyvə ağacları, tərəvəzlər, dərman istehsalında lazım olan bitkilər bu bağlarda becərilir.***

Muxtar respublikamızda Nəbatat bağının yaradılması 1972-ci ilə təsadüf edir. Belə ki, həmin il Azərbaycan Elmlər Akademiyasının təşəbbüsü və Naxçıvan MSSR Nazirlər Sovetinin qərarı ilə Babək rayonu ərazisində 10 hektar torpaq sahəsi ayrılıb, bu sahə suvarma suyu ilə təchiz edilib, uzun illər çəkilən zəhmətin nəticəsində bugünkü Nəbatat bağı ərsəyə gəlib. İndi bu bağ hər kəsin zövq aldığı yaşıl məkan olmaqla yanaşı, həm də bu sahədə tədqiqat aparan alimlərin baş çəkdiyi ünvandır. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun nəzdində fəaliyyət göstərən Nəbatat bağında indi dünyanın bir çox guşələrindən gətirilmiş bitkilər yetişdirilir.

Bu bağ füsunkarlığı ilə insanları özünə cəlb edir. Ötən günlərdə biz də həmin bağda olduq, burada görülən işlərlə maraqlandıq. İncə zövqlə əkilmiş bitkilərin yaratdığı ecazkar gözəllik bizi heyran etdi. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Teyyub Paşayevlə birlikdə bağı gəzdik. Ərazidə irəlilədikcə ağacların kölgəsində başbaşa verən bitkilərin arasında insan özünü dünyanın başqa bir əsrarəngiz guşəsində hiss edir.




Müsahibimiz söhbət zamanı dedi ki, Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov tərəfindən Gürcüstanın Batumi Nəbatat bağından əvvəlki illərdə xeyli sayda ağac və kol toxumları gətirilərək introduksiya edilib. Nəbatat bağında muxtar respublikamızın bitki ehtiyatlarının xammal bazasını zənginləşdirmək məqsədilə Azərbaycanda və xarici ölkələrdə bitən bəzək, dərman, efiryağlı və digər faydalı bitkilərin introduksiyası və iqlimləşdirilməsi, bitki genofondunun, o cümlədən nadir və nəsli kəsilməkdə olan bitkilərin çoxaldılması istiqamətində geniş elmi-tədqiqat işləri aparılır. Bağda Avstraliyanın, Afrikanın, Amerikanın, Aralıq dənizi ölkələrinin, Cənub-Şərqi Asiyanın, Orta Asiyanın, Uzaq Şərqin, Qafqazın zəngin flora nümunələri vardır. Hazırda muxtar respublikanın iqlim şəraitinə uyğunlaşa biləcək müxtəlif növlər üzərində elmi-tədqiqat işləri aparılır. Əsas məqsədlərdən biri də Naxçıvanda botanika ilə məşğul olan və bitkilər aləmi ilə maraqlanan hər kəsi buraya cəlb etmək, onu elmi-tədqiqat işlərinin mərkəzi etməkdir. Müsahibimiz bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində Nəbatat bağında inzibati bina tikilib istifadəyə verilib. Yaradılan gözəl şərait elmi işçilərin daha rahat şəkildə işləmələrinə imkan yaradıb.





Ötən müddət ərzində aparılan yenidənqurma işləri nəticəsində bağın sahəsi də artırılaraq 13,2 hektara çatdırılıb, ərazisi işıqlandırma sistemi ilə təchiz edilib, ağaclardan yaradılan xiyabanların gəzinti yollarına çınqıl örtüyü verilib. Həmçinin "Ultra Sera" tipli son texnologiyaya malik istixana yaradılıb. Bu istixananın ən əsas özəlliklərindən biri də havalandırma sistemlərinin avtomatikliyi, rütubət və bu məkanlar üçün vacib olan elementlərin müasir avadanlıqlar vasitəsilə tənzimlənməsidir. İstixana xüsusi formada qurularaq, istiliyin daxildə akkumulyasiya edilməsi üçün hesablanıb və bu da sərf ediləcək enerji itkisinə müəyyən dərəcədə qənaət edilməsinə imkan verib. Buradakı əkin işləri də tamamlanıb.

Nəbatat bağında olan istixanaya daxil olduğun ilk andan bitkilər, güllər, çiçəklər aləminə düşürsən. Burada bir çox nadir, sitrus, Hind-Çin, Afrika, Avstraliya, Ərəbistan və digər müxtəlif mənşəli bitkilər olmaqla, 10 bölmə yaradılıb, 100-ə yaxın bitki əkilib-becərilir. Bura müxtəlif ölkələrdən xeyli sayda ağac-kol və dekorativ bitki növləri gətirilib, əkilərək sınaqdan keçirilir.

Bağda xarici ölkələrdən gətirilən bitkilərlə yanaşı, həm də nadir bitkilər, Qırmızı Kitaba daxil edilmiş 43 geofit bitki yetişdirilir. Burada çox sayda ağaclar, kollar, çiçəklər, yerli və xarici floralara mənsub olan bitki növləri toplanıb. Nəbatat bağında indiyədək respublikanın müxtəlif yerlərindən gətirilmiş ayrı-ayrı torpaq və iqlim xüsusiyyətlərinə malik olan bitkilər əkilərək introduksiya olunub. Bunlardan mədəni üzüm, daryarpaq iydə, gümüşü iydə, vənyarpaq ağcaqayın, İran meliyası, qaraağac, həqiqi püstə, Şərq platikladusu, adi zirinc, meyer dəvəayağı, santalin yovşanı, süpürgəvarı sabunağacı, Qafqaz dağdağanı, nalbənd qaraağac, Suriya hibiskusu, robur palıdı, gürcü doqquzdonu, yunan qozu, qara qoz, boz qoz, Şərq çinarı və başqalarını qeyd etmək olar. Son dövrlər məhv olmuş hesab edilən botta zarəvəndi tapılaraq kolleksiyaya daxil edilib. Bundan əlavə, Gürcüstan, Türkiyə və Rusiya botanika bağlarından gətirilən 68 ağac, kol və dekorativ bitki növü də introduksiya edilənlər siyahısındadır.

Teyyub Paşayev onu da qeyd etdi ki, Nəbatat bağında geniş ictimaiyyət üçün məlumatlandırıcı yığıncaqlar və tədris kursları da təşkil edilir, burada tələbə və şagirdlərə əyani şəkildə dərslər keçilərək botaniki biliklər haqqında ətraflı məlumat verilir. Bundan başqa, hər həftənin şənbə günü Naxçıvan şəhərində yerləşən təşkilatlar Nəbatat bağına ekskursiya edirlər. Bağın muxtar respublikada tətbiq olunan muzey günlərinin qrafikinə salınması, müxtəlif təşkilatların kollektivlərinin bura ilə tanışlığı onun həm də bir muzey kimi qorunub saxlanılması, zənginləşdirilməsi baxımından əhəmiyyətli olduğunu göstərir. Qeyd edək ki, Nəbatat bağı təbiət gözəlliklərini duymaq, belə gözəlliklərin qədrini bilməklə yanaşı, şagird və tələbələrdə təbiət elmlərinə marağın artırılması, Bioresurslar İnstitutunun elmi fəaliyyətinin tanıdılması, bu istiqamətdə tədbirlərin keçirilməsi, alimlərin təcrübəsindən yararlanmaq kimi maraqdoğuran digər fəaliyyətlərin reallaşdırılması üçün də son dərəcə əhəmiyyətlidir. Nəbatat bağında Avropa və Aralıq dənizi florası, nadir bitkilər genofondu, gülçülük, dərman bitkiləri və meyvə genofondu sahələri yaradılıb. Nadir bitkilər genofondu sahəsində xeyli sayda nadir, endemik və məhv olmaq təhlükəsi altında olan bitki becərilir. Təcrübə sahəsində yumşaq və bərk buğdanın müxtəlif sortları üzərində tədqiqat işləri aparılır.

Naxçıvan sakinləri və muxtar respublikanın qonaqları bağa gələrək öz istirahətlərini mənalı keçirə bilərlər. İstixanada becərilən seresis, aqava, maldili, vaşinqtoniya, cırtdan nar, kağız gülü, araukoriya, portağal, limon, mimosa, dağ mavi gözü, çimli daşdələn, zəncəfil və digər bitkilər insanı heyran edir, floranın sehrinə salır. Əminliklə demək olar ki, bu bağ gələcəkdə əhalinin teztez baş çəkəcəyi ən sevimli ünvanlardan biri olacaq.

**Nail ƏSGƏROV**

# Fəsillərin birlik ocağı




***Qədim tariximizin salnaməsi Gəmiqaya əsrlər boyu ulu babalarımızın ilkin yurd yeri olub. Zəngin keçmişini özündə əks etdirən bu abidənin gözəlliyinə gözəllik qatan, əzəmətli dağların ətəyində qədim oğuz-türk elinin adı ilə bağlı bir göl var ki, bu da sirli-sehrli Göygöldür. "Kitabi-Dədə Qorqud"da rast gəldiyimiz, igidlik, mərdlik simvolu olan bu gölün tarixi eramızdan əvvəllərə söykənir.***

Ecazkar təbiəti, sirli-sehrli aləminin canlı şahidi olmaq üçün üz tuturuq insanları özünə heyran edən dörd fəsilli, füsunkar mənzərəli Göygölə... Bu göl Gəmiqaya ətəklərində, Nürgüt kəndini əhatəyə alan sıra dağların arasında yerləşir. Elə Nürgüt kəndini digər kəndlərdən fərqləndirən də zümrüd rəngli, səfalı Göygöldür.

Yolumuz uzundur. Elə bu səbəbdən sübh tezdən, dan yeri ağaran kimi üz tuturuq Göygöl istiqamətinə. Günəş hələ təzəcə dağların arasından ahəstə-ahəstə çıxır. Şəfəqləri qarşıdakı uca dağların başına yayılır. Yol boyunca rastlaşdığım mənzərə – yay fəslinin qızmar çağında könüloxşayan başıqarlı dağlar, min bir dərdin dərmanı, yeraltı mineral bulaqlar, yolboyu kəndə gələnləri salamlayan cürbəcür ağaclar, nadir bitkilərlə zəngin olan Tillək meşəsinin füsunkarlığı, insanın ruhunu dinləndirən Əyriçay və Saqqarsu çaylarının həzin zümzüməsi... Tanrının xüsusi zövqlə, incəliklə yaratdığı möcüzəvi bu yurd yeri sanki bütün təbii gözəllikləri sehrli bir qüvvətək özünə çəkib.

Bu yolların keçmişinə yaxşı bələdəm. Bir anlıq xəyalımda yolların illər öncəki vəziyyəti canlanır. Əvvəllər bu yolları gedib-gəlmək çox çətin idi... Demək olar ki, kənd sakinlərinin ən böyük problemi də elə bu idi. Lakin indi dövlətimizin qayğısı sayəsində strateji əhəmiyyətə malik olan Biləv-Göygöl avtomobil yolunun yenidən qurularaq istifadəyə verilməsi kənd sakinlərinin əsas problemini aradan qaldırıb. İndi bu yolları rahat getdikcə, uca dağları yararaq geniş yollar çəkən insanların qüdrətinə, əllərinin gücünə heyran qalmamaq mümkün deyil.

Nürgütə yaxınlaşdıqca gül-çiçəyin təravətli qoxusu, Saqqarsu çayının zümzüməsi, quşların cəh-cəhi insanı bihuş edir. Elə kəndin girişindəcə çağlayan buz kimi bulaq yoldan ötənləri qarşılayır. Bir tərəfi göz ayıra bilmədiyimiz təbiətin gözəlliyi, bir tərəfi isə könüloxşayan şəhər mənzərəsi... Yəqin ki, duruxdunuz... Bəli, yeni məktəb binası, səhiyyə ocağı, kənd və xidmət mərkəzləri, məscid, sanki indicə çəkilmiş yolların üzərindən bir-birini ötüb keçən maşınlar... Bu xoş görünüş, gözəl mənzərə insana bütün yorğunluğunu, dərd-qəmini unutdurur.

Maşınımız Göygöl yaylaqları ilə irəliləyir. Aran bölgələrdən bu yaylağa qalxmış insanların obaları gözə dəyir. Obaların ətrafında isə yüzlərlə arı pətəkləri...

Artıq Göygöldəyik. Burada biz tək deyilik. İstirahət etmək üçün bir neçə ailə artıq çoxdan samovarını qaynadıb, gölün sakit ləpələrini seyr edə-edə çay içir. Görünür, gözəl təbiəti olan bu diyarın elə insanları çox mehriban, qonaqpərvərdirlər. Xurs kənd sakini Eldar Haqverdiyev bizi çay içmək üçün yaşıllıq üzərində açdıqları süfrənin başına dəvət edir. Süfrənin ətrafına toplaşanlar onun və Bakı şəhərindən qonaq gələn yaxın dostunun ailəsidir. Eldar Haqverdiyev bizə göl haqqında maraqlı məlumatlar verir: "Dəniz səviyyəsindən 3065 metr yüksəklikdə olan bu göl muxtar respublikanın ən hündürdə yerləşən gölüdür. Gölün dərinliyi 5, bəzi yerlərdə isə 7 metrə çatır. Gölün suyunun mənbəyi dağ zirvələrindəki əriyən qarlar, ilin bütün fəsillərində yağan yağış və onun ətrafında qaynayan mərcan gözlü bulaqlardır. Bu yerlərin kəskin iqlim şəraiti olsa da, gölün ətrafı qeyri-adi təbiətə malikdir. Yerli əhali arasında "Dörd fəsil" adlandırılan gölün bir tərəfində qar olanda, digər tərəfində çiçək açır. Gördüyünüz kimi, avqust ayı olsa da, dağların yamaclarında qar var, gölün dörd bir tərəfi isə al-əlvan gül-çiçəklə doludur".

Həmsöhbətimiz və onun ailəsi ilə bir daha görüşmək ümidilə sağollaşırıq. İndi isə yol alırıq Gəmiqayanın sol qolu olan Saqqarsu çayına. Öz mənbəyini Göygöldən alan, Gilançayla qovuşan çaya toxunduqda buz kimi su insanın sümüyünə işləyir. Çayın həzin səsi bir xoş nəğmə kimi insanın ruhuna dinclik verir. Gölün üzərində əks olunan buludların axışı, xəfif mehdən xışıldayan otların səsi, Saqqarsu çayının şırıltısı insanı bir başqa aləmə aparır.

Zəngəzur silsiləsi, Gəmiqaya dağı və Ağdağın ətəklərində ecazkar gözəlliklə insanları heyran edən Göygöllə Nuh müqəddəsliyi arasında bir vəhdət var sanki. Gölün mərkəzində yerləşən kiçik bir ada Nuhun quruya çıxdığı, qayaların qüdrətdən təbii istehkam qurduğu dağın ətəyində gizlənmiş adanı xatırladır. Göygölün sirri-sehri elə Nuh əfsanəsinin özü qədər realdır. Bu reallığın ən gerçək əksi isə gölün üzərində qıy vuran qartallar qədər məğrur və qorxmaz Azərbaycan əsgəridir. O əsgər ki, Gəmiqaya zirvəsində sinəsini Vətən torpağına sipər edib, dumanı, çəni əskik olmayan bu dağların keşiyində, Vətən sərhədində doğma torpağın keşiyini çəkir. Düşündüm ki, bura gəlib soyuq səngərlərdə Vətən keşiyində duran əsgərlərimizə baş çəkməmək qəbahət olar. Bu fikirlə keçilməz qala, igid oylağı olduğu uzaqdan bilinən səngərə doğru irəlilədim. Burada xidmət edən zabit Nurlan Həmidovla salamlaşdım. Tovuz rayonundan olan Nurlanla söhbətə körpü saldıq. Düşmən üzərində qələbənin çox uzaqda olmadığını qürurla və əminliklə deyən gənc komandir əsgərlərin məişətinə, qida təminatına, hərbi hazırlıqlarına ciddi diqqət yetirildiyini bildirir. Onun sözlərinə görə, mütəmadi olaraq keçirilən təlimlərdə əsgərlər komandirlərindən hərbi texnikanın sirlərini öyrəndikləri üçün ədalətsiz müharibədən böyük qələbə ilə çıxacaqlarına əmindirlər.

*...Yurdumuzun şanlı tarixinin şahidi, özündə min sirri-sorağı saxlayan Göygöl! Sən öz füsunkarlığınla, ecazkarlığınla, mərd, əyilməz dağlarınla, dağlarının qoynundan süzülüb gələn göz yaşı qədər duru bulaqlarınla, hayharaylı çaylarınla hələ çox dastanlara mövzu, sirli-sehrli təbiətinlə daim bu yurdun, bu elin bəzəyi olacaqsan.*

✍ **Gülcamal TAHİROVA**

## Meyvə və tərəvəz məhsullarının soyuducu anbarlara tədarükü ilə bağlı elan

Muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırılır ki, tələbatdan artıq istehsal etdikləri meyvə və tərəvəz məhsullarını soyuducu anbarlar aşağıdakı qiymətlərlə qəbul edir.

| S/s | Məhsulun adı | Ölçü vahidi | 2017-ci il üçün nəzərdə tutulan qiymət | 2016-cı ilin qiymətləri |
|---|---|---|---|---|
| 1.1 | Kartof I növ | kq | 40 qəpik | 40 qəpik |
| 1.2 | Kartof II növ | kq | 25 qəpik | 25 qəpik |
| 1.3 | Kartof I və II növ (50%-50%) qarışıq | kq | 32 qəpik | - |
| 2.1 | Soğan I növ | kq | 35 qəpik | 35 qəpik |
| 2.2 | Soğan II növ | kq | 25 qəpik | 25 qəpik |
| 2.3 | Soğan I və II növ (50%-50%) qarışıq | kq | 30 qəpik | - |
| 3.1 | Alma I növ | kq | 70 qəpik | 50 qəpik |
| 3.2 | Alma II növ | kq | 40 qəpik | 30 qəpik |

Məhsulları tədarük edən soyuducu anbarların ünvanını və əlaqə telefonlarını bildiririk:

| S/s | Hüquqi və fiziki şəxsin adı | Ünvanı | Əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | "Naxçıvan Meyvə Tərəvəz Məhsulları" MMC | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | (050) 275-91-71<br>(036) 554-05-57 |
| 2. | "Yusifoğlu" firması | Şərur rayonu, Məmmədsabir kəndi | (070) 222-13-67 |
| 3. | Fiziki şəxs Ramiz Həsənov | Şərur rayonu, Danyeri kəndi | (050) 213-55-54 |
| 4. | Fiziki şəxs Yaqub Tağıyev | Şərur rayonu, Cəlilkənd kəndi | (077) 329-29-30 |
| 5. | Fiziki şəxs Müsrza Əliyev | Ordubad şəhəri, Novruz Rzayev küçəsi | (050) 325-87-77 |
| 6. | Fiziki şəxs Elxan Cabbarov | Ordubad şəhəri, Şəhriyar qəsəbəsi | (050) 383-70-89 |
| 7. | Fiziki şəxs Əli Musayev | Şahbuz şəhəri, "28 May" küçəsi | (050) 678-28-40 |
| 8. | Fiziki şəxs Rəşid Abbasov | Kəngərli rayonu, Yurdçu kəndi | (077) 633-74-74 |
| 9. | Fiziki şəxs İlham Abdullayev | Sədərək rayonu, Sədərək kəndi | (070) 871-86-06<br>(051) 632-68-02 |

***Qeyd:*** Kənd təsərrüfatı məhsulları istehsalçıları öz məhsullarını yuxarıda qeyd edilən sahibkarlara müraciət edib icarə müqaviləsi əsasında soyuducu anbarlarda saxlaya bilərlər.

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual: Azərbaycan Respublikası ərazisində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazə hansı hallarda verilir və onu təsdiq edən sənəd nədir?***

**Cavab:** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda;

– Ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyduqda;

– Azərbaycan Respublikasının ərazisində azı 100.000 manat dəyərində daşınmaz əmlakı və ya Azərbaycan Respublikasının banklarında həmin məbləğdə pul vəsaiti olduqda;

– İqtisadiyyat, sənaye, hərbi, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda;

– Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyət sahələri üzrə işlərin görülməsi və ya xidmətlərin göstərilməsi üçün Azərbaycan Respublikasının vətəndaşları və ya Azərbaycan Respublikasında təsis edilmiş hüquqi şəxslər tərəfindən dəvət edilmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi kateqoriyaya aid mütəxəssis olduqda;

– Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvləri olduqda;

– Xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyinin rəhbəri və onun müavini vəzifəsini tutduqda;

– Azərbaycan Respublikasında təsis edilmiş və təsisçisi və ya təsisçilərindən ən azı biri xarici hüquqi və ya fiziki şəxs olan hüquqi şəxsin rəhbəri və onun müavini vəzifəsini tutduqda;

– Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda;

– Azərbaycan Respublikasının ərazisində haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada iş icazəsi aldıqda;

– Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrində əyani formada və ümumtəhsil müəssisələrində təhsil aldıqda;

– Dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olduqda;

– Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda.

Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi verilir. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə və etibarlılıq müddətində Azərbaycan Respublikasından getmək və viza almadan Azərbaycan Respublikasına qayıtmaq hüququ verən, habelə həmin şəxsin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəddir.

***Sual: Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə hansı müddətə verilir?***

**Cavab:** Ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə ərizəçinin müraciətində göstərilən, lakin 3 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 3 ildən çox olmayan müddətə uzadıla bilər.

Digər hallarda Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə ərizəçinin müraciətində göstərilən, lakin 1 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 2 ildən çox olmayan müddətə uzadıla bilər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

## Muxtar respublika birinciliyinin qalibləri mükafatlandırılıblar

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində yeniyetmələr arasında kikboksinq üzrə muxtar respublika birinciliyi keçirilib.*

"Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən birincilikdə 60-dan çox idmançı 10 çəki dərəcəsində rinqə çıxıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüş Sənəti Federasiyasının birgə təşkil etdiyi birincilikdə Akif İsmayılov, Şəmsəddin Əliyev, Məhəmməd İsmayılzadə, Heydərəli Əliyev, İsmayıl Yaqubov, Oruc Əmirzadə, Ayhan İmranlı, Fərman Rzayev, Yaqub Əkbərov və Cəbrayıl İsmayılov müvafiq olaraq 27, 30, 33, 36, 39, 42, 45, 48, 57 və 71 kiloqram çəki dərəcələrində bütün rəqiblərini məğlub edərək birinciliyin qalibi olublar.

Sonda qalib idmançılara Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplomları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 619